PETA KIDS

# Heyvanlar - mənim dostumdur!



UŞAQLAR ÜÇÜN OXU MATERIALI VƏ TAPMACALAR

# əziz uşaqlar,

Bu kitabda siz heyvanlar haqqında bəzi məlumatlar əldə edəcəksiniz: onların necə yaşadığını, bir-biri ilə necə rəftar etdiyini və nə kimi tələbatlarının olduğunu öyrənəcəksiniz. Həqiqətdir ki, insanlarla heyvanlar yan-yana yaşasalar da, biz it və pişik kimi heyvanlar haqqında çox vaxt heç nə bilmirik. Odur ki, bəzən biz onları düzgün başa düşmürük. Bizim onlarla oxşar tərəflərimiz də var. Heyvanlar haqqında daha çox məlumat əldə etmək lazımdır, çünki onlar haqqında nə qədər çox bilsək, nə hiss etdiklərini o qədər asan anlayarıq. İnanmırsınız? Onda bu kitabdan çoxlu maraqlı məlumatlar əldə edəcəksiniz və öyrənəcəksiniz ki, heyvanlar – yaxınlığımızda yaşayan və çox şeyi hiss edə bilən maraqlı, ağıllı varlıqlardır. Siz həm də oxumaqdan zövq alacaqsınız. Artıq heyvanlar haqqında çox şey bilsəniz və evdə heyvan saxlasanız da, dostlarınız haqqında maraqlı biliklər qazanacaqsınız.

## İçindəkilər:


Heyrətamiz heyvanlar aləmi....3
Boyama üçün rəsmlər – ağ-qara cizgilərdən rəngli dünyanı yarat....4
Arif üçün dost....8
İtlərin dili....9
Heyvanların həyatından hekayələr....10
Qızıl qayda....12
Sahibsiz heyvanlar....14
Viktorina: Heyvanlar haqqında biliklərini yoxla....16
Emalatxanada işləməkdən zövq al: köpək maskası....17
Komikslər: İtlərin həyatı....19
Rəqəmləri birləşdir + Nəşriyyat haqqında məlumat....31




BU KITAB AŞAĞIDAKI QURUMA MƏXSUSDUR:

______________________________



# HEYRƏTAMIZ HEYVANLAR ALƏMİ

**Heyvanlar, onların bacarıqları və davranışları haqqında nə qədər çox bilsən, onların nə dərəcədə mürəkkəb və unikal varlıqlar olduğunu daha asan başa düşərsən. Bu kitabdan sən bəzi maraqlı məlumatlar əldə edəcəksən.**

1. Delfinlər gəmi qəzası nəticəsində dənizdə boğulan şəxsləri xilas etmişlər. Onlar uzun məsafələrdə insanları suyun səthində saxlaya bilirlər.
2. Qunduzlar mürəkkəb təşkilati quruluşa malik qruplarda yaşayırlar. Onlar yaşamaq üçün yuvalar və qidaların saxlanması üçün anbarlar tikirlər.
3. Dişi və erkək müşk öküzləri əlverişsiz hava şəraiti və ya hər hansı təhlükə zamanı balalarının ətrafında mühafizə çevrəsi yaradırlar.
4. Fillər rəsm çəkməyi çox sevirlər. Bunun üçün onlar xortumları ilə sabit tuta biləcəkləri ağac budaqları və ya daş parçalarından istifadə edirlər.
5. Oranqutanqlar gecələmə yerlərini yağmurdan mühafizə etmək üçün dam tikirlər. İri yarpaqlar onlar üçün çətir rolunu oynayır.
6. Amerikada yaşayan meşə xoruzu adlı quş Kanadadan Cənubi Amerikaya və oradan da geri uça bilir. Bununla bərabər o, qışın gəlməsilə tərk etdiyi eyni yuvaya geri qayıdır.
7. Erkək kral pinqvinləri Antarktidanın şaxtalarında iki ay müddətində yumurtalarını mühafizə edir və kürt yatırlar.
8. "Elektrik" balıqları və ilanbalıqları cərəyan impulsları hasil edərək öz bədənləri ətrafında elektrik sahəsi yaradır. Bu şəkildə onlar hərəkət istiqamətlərini müəyyən edir, düşmənlərin qulağını batırır və öz aralarında ünsiyyət qurur.



# AĞ-QARA CIZGILƏRDƏN RƏNGLI DÜNYANI YARAT!

Rəngli qələmlərini götür və boyama üçün rəsmlərdəki heyvan və bitkiləri boya. İnsanlarla iç-içə yaşadıqları üçün yəqin sən it və pişiklə artıq tanışsan. Fil və tutuquşuları öz təbii mühitlərində təsvir olunub. Əgər heyvanların hansı rəngdə olduğunu bilmirsənsə, kitabxanada bu möhtəşəm varlıqlar və onların həyatı haqqında öyrənə, yaxud müəllimindən soruşa bilərsən.



**HEÇ BILIRDINMI KI,**

itlər insan qulağının duya bilmədiyi müxtəlif səsləri ayırd edə bilir?

İtlər canavarlarla qohumdur –heç sirena zamanı it ulaması eşitmisən? İnsanla köpəklər düz 12000 ildən çoxdur ki yan-yana yaşayırlar. Müxtəlif ölçü və rənglərdə çox sayda it var. İnsanda da olduğu kimi, onların necə göründüyü deyil, xarakteri və sizinlə möhkəm dostluqları əhəmiyyət kəsb edir. İtlərin hər gün lazımı miqdarda su, sağlam qida ilə yanaşı, ailəsində sevgi, qayğı və sənin kimi dosta ehtiyacı var!





**HEÇ BILIRDINMI KI,**

pişiklər qaranlıqda istiqaməti müəyyən etmək üçün özlərinin uzun bığlarından istifadə edirlər?

Minilliklər boyu pişiklər insanlarla yanaşı yaşamaqdadır. Şəfqətlə oxşandıqda, yumşaq diz üstündə, isti yataqda və ya pəncərə önündə günəşli bir yerə uzandıqda pişiklər dərhal mırıldanmağa başlayırlar. Pişiklər kağızdan düzəldilmiş topun dalınca qaçmağı və karton qutuda gizlənməyi çox sevirlər. Evinizdə pişik varsa, onu sığalla və həmişə qayğısına qal.




Fillər özlərinin ailə birliklərində yaşayır. Hər gün onlar uzun kilometrlər qət edərək qida və su mənbələri axtarır. Sirk və zooparklarda onları bellərində insan gəzdirmək və ya təhlükəli nömrələr nümayiş etdirmək üçün istifadə edirlər. Yerdə qalan vaxtlarda isə bu heyvanları ayaqlarından zəncirlə bağlı tuturlar. Əgər sən bir daha bu cür "Heyvan şoularına" getməsən, sirk və zooparklara fillərin velosiped kimi zəncirlənməsinin əleyhinə olduğunu aşkar şəkildə göstərmiş olacaqsan.






Tutuquşuları başqa tutuquşuları ilə birlikdə olmağı sevirlər. Özlərinin güclü səsləri vasitəsilə onlar müxtəlif ağaclar üzərində oturaraq aralarında ünsiyyət qura bilirlər. Tutuquşularının yeri qəfəs deyil, onlar ağaclara dırmaşa və digər quşlarla bir arada ola bildikləri azad mühitdə yaşamalıdır. Tutuquşuları üçün sən də fəal ol! Tutuquşu saxlayan insanlara quşlarına yaxşı qayğı göstərməli və yaşayış yerində onların uça biləcəkləri, ətraf mühiti dərk edə biləcəkləri və çoxlu hərəkət edə biləcəkləri kifayət qədər yer ayırmalı olduqlarını izah et. Yaşayış yeri təhlükəsiz şəkildə təchiz edilməli, qapı və pəncərələr bağlı tutulmalıdır. Lakin bayırda quraşdırılan iri ölçülü volyerlərə daha çox üstünlük verilməlidir! Tutuquşuların özlərini xoşbəxt hiss etməsi üçün mütləq tərəfdaşlara ehtiyacı var.

# ARIF ÜÇÜN DOST!

Arif çoxdandır it istəyir. Valideynləri və bacısı Fidan ilə birlikdə itə qayğı göstərmək üçün ailənin kifayət qədər vaxtının olub olmadığını və onun baxımına imkanlarının çatıb çatmadığını götür-qoy edirlər. Onlar birlikdə kitablardan məlumat axtarır – çünki Arifin doqquz yaşında böyük oğlan olmasına baxmayaraq, valideynləri onsuz da köpəyin baxımında ona kömək etməli olacaqlar. Axı bu köpək onların ailəsinin yeni üzvü olacaq!

Bundan sonra onlar birlikdə heyvanlar üçün sığınacağa yollanırlar, çünki orada çox sayda sahibsiz heyvan yeni ailələrinin yolunu gözləyir. Heyvanlar üçün sığınacaqda Arif çox kədərləndi. Çox sayda it dar qəfəslərdə yaşayır, onların çoxu hürür, özlərini ora-bura çırpır, dövrə vurur. Olqa bir az qorxdu - onun sadəcə dörd yaşı var.

Heyvan sığınacağına rəhbərlik edən xanım Arif ilə ailəsinin sığınacağa gəlməsinə çox sevinir. O, uşaqlara itlərin çoxunun qorxduğunu, ancaq hamısının çox darıxdığını izah edir. İtlər sığınacaqda yaşamaq istəmirlər.

Onların heç birinin bəxti gətirməyib və yeni şans əldə etməyə ümid edirlər.
Odur ki, itləri satın almaq əvəzinə, sığınacaqdan sahiblənmək daha düzgündür.

Əfsuslar olsun ki, Arif ilə ailəsi bütün heyvanları deyil, onlardan sadəcə birini evlə təmin edə bilirlər. Cinsi olmayan və hüznlü, ürkək baxışlarla baxan bir köpək onların daha çox diqqətini çəkdi. Onun gözləri elə mehribandır ki, hamının xoşuna gəldi. Ailə köpəyi bir neçə dəfə həyətə çıxardıqdan və köpək həqiqətən də onlara yaxınlaşdıqdan sonra onlar özlərinin yeni dostlarını evlərinə apardılar.

Arif ilə Fidan birlikdə köpəyə Toplan adını qoymaq qərarına gəldilər. Lap əvvəllər Toplan bir qədər qorxaq idi. Lakin hamı onun çətin həyat yaşamış ola biləcəyini və insanların etibarını qazanması üçün müəyyən qədər vaxtın tələb olunacağını başa düşür. Artıq bir neçə həftə sonra bütün ailə həyatlarını Toplansız təsəvvür edə bilmir. Hamı onu sevir, o isə ailəsini. Ancaq Toplan hələ də bir az qorxaqdır.

Arif xoşbəxtdir, artıq onun yeni dostu var! Toplan da xoşbəxtdir, artıq onun yeni ailəsi var!





# İTLƏRIN DILI

**Heç bilirdinmi ki, itlər danışa bilir?**
Lakin insanların dilində danışmadıqları üçün, bizə nə isə demək istədikdə bədənlərindən istifadə edirlər. Maraqlıdır, elə deyilmi? İtlərin bizə nə demək istədiyini anlamaq üçün onların bədənlərinin vəziyyətinə diqqət yetirmək lazımdır. Bununla bir çox anlaşmazlıqların qarşısını almaq mümkündür.

## BU ŞƏKILLƏRDƏ TƏSVIR OLUNMUŞ ITLƏRIN SƏNƏ NƏ DEDIYINI BILIRSƏNMI ?

Düzgün hesab etdiyin cavabın qarşısında işarə qoy. Düzgün cavabları və bu cür hallarda düzgün davranış qaydaları ilə bağlı məsləhətləri bu səhifənin sonunda görə bilərsən.

1



- ☐ **aqressivdir–Ehtiyatlı ol!**
- ☐ **səninlə oynamaq istəyir**

Köpək bədəninin yuxarı hissəsi belinin aşağı hissəsindən aşağı şəkildə quyruğunu oynadır və diqqətlə sənə baxır.

2



- ☐ **yatır, yaxud taqətsiz vəziyyətdədir**
- ☐ **səndən qorxur və ya sözünə qulaq asır**

Köpək yerdə sərilmiş şəkildə uzanıb və başını çevirib; quyruğu da yerdə sərbəst dayanıb.

3



- ☐ **qorxur**
- ☐ **qarnı ağrıyır**

Beli bükük, quyruğu dartılm ış, qulaqları aşağı sallanmış şəkildə köpək başını bir qədər əyib əmin baxışlarla baxır.

4



- ☐ **maraq göstərir**
- ☐ **aqressivdir**

Bədəni gərgindir, dişlərini qıcayır, ola bilsin mırıldayır, belindəki tükləri daraq dişləri kimi qabarıb, quyruğu dik durur.

1. Bu it ya yatır, ya da halsızdır. Ehtiyatlı ol: iti sığallasan və o bunu görməsə, qorxub səni dişləyə bilər. 2. Bu it yaman səninlə oynamaq istəyir. Ancaq ehtiyatlı olun, çox coşmayın! 3. Bu it qorxur. Bu isə o deməkdir ki, onu tanımırsansa rahat buraxmalısan. 4. Bu itin əhvalı yaman pisdir və sənə xəbərdarlıq edir. Qətiyyən ona yaxınlaşma və gözlərinin içinə bax-ma. Ehmalca geri çəkil, lakin qaçma və əlinlə hər hansı qəfil hərəkət etmə.

# Prinsila adlı donuz balası balaca oğlanı boğulmaqdan xilas edir

Kerol Berk və on bir yaşlı oğlu Entoni 1984-cü ilin isti iyul günündə çimmək üçün gölə yollanır. Onlar böyütdükləri iki aylıq və çəkisi on kiloqrama yaxın olan donuz balası Prinsilanı da özləri ilə aparırlar. Psixiki xəstə olan Entonidən fərqli olaraq, Prinsila suyu sevirdi və əla üzücü idi.
Bir neçə saat ərzində Entoni anası və Prinsila ilə birlikdə maili göl qırağında gizlən-paç oynayır və sonda uşaq yorulur, Kerol Berk isə çimərlik ləvazimatlarını yığmağa başlayır. O təkrar oğlunun yanına qayıtdıqda onu suyun içində görür. Uşaq var gücü ilə qollarını tərpətməyə çalışırdı. Kerol dərhal suya atılaraq ona tərəf üzür. Prinsila da eyni şəkildə suya atılır. Heyvan olmasına və oynayıb yorulmasına baxmayaraq, uşağa ilk olaraq o çatır. Entoni ondan möhkəm-möhkəm yapışır, lakin təşviş içində bərk dartdığından ikisi də suyun altına gedir. Uşaq donuz balasından xeyli ağır olduğu üçün ikisi də batmağa başlayır. Prinsila var gücü ilə suyun üzünə çıxmağa çalışır və sonda buna müvəffəq olur. Entoni Prinsilanın kiçik bədənindən möhkəm yapışır və heyvan sahilə doğru üzüb quruya çıxır.
Bütün donuzlar kimi Prinsilanın da güclü yaddaşı vardı. Bu hadisədən uzun illər sonra da hər dəfə uşağın suya yaxınlaşdığını görəndə narahatlıq keçirirdi.

Nəşr: Paul Dryu Stivens, Riəl Ənimal Hirous, Çiko, Kalif.: Şerp & Dannigen, 1989 (cüzi düzəlişlər)





# TANQ ADLI IT GƏMI QƏZASINDA INSANLARI XILAS EDIR

1919-cu ilin dekabrında güclü çovğun zamanı “Eti” gəmisi Kanada yaxınlarında Nyufaundlend sahillərində qayaya çırpıldı. Göyərtədəki 93 nəfər aciz şəkildə qəzəbli dəniz dalğalarının gəmini qayalara vurmasını izləyirdi. Heyət üzvləri sahildəki insanlara gəmi kanatlarından birini tullamağa çalışsa da, bu cəhd uğursuz alındı. Bu zaman dənizçilərdən biri sahilə tərəf üzmək üçün kanatdan yapışaraq suya atladı. Lakin güclü çovğun onu açıq dənizə sovurdu və dənizçi boğuldu. Gəmi kapitanının dalğıc cinsinə mənsub Tanq adlı iti vardı. O, bütün dəniz səfərləri zamanı kapitanı müşayiət edərdi. Kapitan Tanqın gəmidəki insanlar üçün sonuncu ümid yeri olduğunu yaxşı bilirdi. O, kanatı itə verib onun suya tullanmasına və kanatı sahilə aparmasına kömək etdi. Nəhəng dalğaların və çovğunun pəncəsində suyun səthində qala bilmək köpək üçün olduqca çətin idi. Bununla belə, o həm də güclü yeraltı cərəyanla mübarizə etməli idi, su isə gözlərinə və qulaqlarına dolurdu. Lakin o bu cür maneələri aşıb sahilə tərəf üzürdü. Sahildəki insanlar onun qabağına qaçdılar və Tanqı təhlükəsiz yerə apardılar. İtin ağzından kanatı alıb dirəyə doladılar. Artıq batmaq təhlükəsi ilə üz-üzə qalmış gəmini sahilə çıxarmaq üçün imkan yaranmışdı. Göyərtədəki 92 nəfər xilas edildi. Bu ismarıcda sahilə çıxdıqdan sonra Tanqın nə etməsi haqqında heç bir məlumat olmasa da, sən, çox güman ki, onun gəmidən çıxan hər kəsi quyruğunu yelləyərək qarşıladığını öz təsəvvüründə canlandıra bilərsən. Londonun məşhur “Lloyds” sığorta şirkəti Tanqı ömrünün sonunadək boynunda gəzdirdiyi cəsurluq medalı ilə təltif etdi.

Nəşr: Tim Cons, Doq hirous, Siettl: Episenter Press, 1995 (cüzi dəyişikliklər)



# QIZIL QAYDA

Bizlərdən hər biri qarşısına heyvanlara hörmət və mərhəmətlə yanaşmaq haqqında məqsəd qoya bilər. Biz başqalarını da bu cür davranış nümayiş etdirməyə həvəsləndirə bilərik. Çünki bəzi insanlar heyvanlar haqqında çox məlumatlı deyillər. Bu səbəbdən də onları məlumatlandırmaq olduqca vacibdir!
Qızıl qaydanı bilirsən? Başqa insanlarla davranış zamanı istifadə etdiyimiz bu qaydanı biz heyvanlarla davranışda da tətbiq edə bilərik:

**"Sənə qarşı edilməsini istəmədiyin şeyləri başqasına qarşı etmə."**
Qızıl qaydanı anlamaq və onu heyvanlara qarşı davranışda da tətbiq etməyə başlamaq üçün aşağıda verilmiş dörd vəziyyət nümunəsi üzərində məşq et. Təsvir edilmiş vəziyyətləri xəyalında canlandır: Bütün nümunələrdə insanlar Qızıl qaydanı pozur. Hər vəziyyətin Qızıl qaydaya nə dərəcədə zidd olduğunu (a) və sənin bu vəziyyətə necə müdaxilə edib Qızıl qaydaya uyğun hərəkət edə biləcəyini özündə qeyd et (b).

1. Səhər məktəbə gedəndə qısa zəncirlə bağlanmış bir it görürsən. Onun qabağında nə yemək, nə də su var. Nahardan sonra evə qayıdanda itin hələ də orada olduğunu görürsən.

   (a) Burada Qızıl qayda nə dərəcədə pozulur? ____________________

   (b) Sən nə edə bilərsən? ____________________



2. Sən ən yaxın oğlan və ya qız dostunun gölməçədən çömçəquyruq çıxardığını görürsən.

   (a) Burada Qızıl qayda nə dərəcədə pozulur? ____________________

   (b) Sən nə edə bilərsən? ____________________

3. Dostlarınla bir neçə sahibsiz itlə qarşılaşırsan. Onlar ana itlə küçükləridir. İnsanlar onları yemləyiblər. Lakin do  stlarından biri itləri qəzəbləndirməyi təklif edir. O, heyvanları qovmaq və yemək yemələrinə imkan verməmək istəyir.

   (a) Burada Qızıl qayda nə dərəcədə pozulur? ____________________

   (b) Sən nə edə bilərsən? ____________________

4. Yuvasından düşmüş körpə quş balası yolun kənarında ağacın altında oturur. Deyəsən bala quş yaralı deyil, ancaq hələ uça bilmir. Onun valideynləri həyəcanla ətrafında uçuşurlar.  Lakin insanlar fikir vermədən yanlarından ötüb keçirlər.

   (a) Burada Qızıl qayda nə dərəcədə pozulur? ____________________

   (b) Sən nə edə bilərsən? ____________________



1.(a) Açıq-aydın başa düşülür ki, itin sahibinin heyvanın yemək, su, hərəkət etmə və sosiallaşmaq kimi təbii ehtiyaclarını qarşılamaqdan zəhləsi gedir.
(b) Sən itin sahibinə heyvanın bütün günü suya və minimum gündə bir dəfə yeməyə ehtiyacının olduğunu deyə bilərsən. Bununla yanaşı, köpək lazımı qədər hərəkət etməlidir, çünki onlar sosial heyvanlardır və həm insanlarla, həm də digər itlərlə ünsiyyətdə olmağı sevirlər.
2.(a) Çömçəquyruq öz təbii mühitindən qoparıldı. O sadəcə alışdığı mühitdən deyil, həm də digər heyvanlarla birlikdən məhrum edildi və bəlkə də onun həyatı təhlükəyə girdi.
(b) Heyvanın öz təbii mühitində qalmalı olduğunu dostuna başa sal və ondan çömçəquyruğu suya geri qaytarmasını tələb et.
3.(a) Sahibsiz itlər insanlar tərəfindən küçələrə tərk edilib, yaxud da onlar sahibləri tərəfindən tərk edilmiş itlərin balalarıdır. Sığınacaqları olmayan bu heyvanlar tez-tez təhlükəyə məruz qalır və aclıqdan əziyyət çəkir. Onları hirsləndirmək yerinə onlara kömək et!
(b) Dostlarından bu cür vəziyyətdə özlərini necə hiss edə biləcəklərini soruş və itləri rahat buraxmalarına çalış.
4.(a) Heç kim ayaq saxlayıb quşa kömək etmədi və quş təhlükəli vəziyyətdədir.
(b) Sən ehmalca quşu ovcuna alıb yaxınlıqdakı budağın üzərinə qoya bilərsən – valideynləri onu tapıb qeydinə qalacaqlar. Çünki quşlar hətta balalarına insan əli dəydikdə belə onların qeydinə qalırlar.  Eyni zamanda diqqətli olmalısan ki, təsadüfən quş balasını şikəst etməyəsən. Balaca quşcuğazın başqa yerə düşməməsi üçün dostlarından və ya böyüklərdən kömək istə.

# SAHIBSIZ HEYVANLAR

İtlər və pişiklər böyük məmnuniyyətlə insanlarla birlikdə yaşayırlar. Lakin əfsuslar olsun ki, məsuliyyətsiz insanlar hər dəfə heyvanları qovur və onlar küçələrdə yaşamağa məhkum olurlar. Bu heyvanların balaları da sığınacaqsız qalır.

Sahibsiz heyvanlar bəzi insanlara maneçilik törədir. Lakin tamamilə sahibsiz heyvanların vəziyyəti daha acınacaqlıdır. Küçələrdəki həyat it və pişiklərə böyük əzablar verir: onlar daim qida tapa bilmədikləri üçün çox vaxt aclıqdan əziyyət çəkir. Yaralananda və ya xəstələndikdə onları kimsə baytara aparmır. Balaları olduqda isə demək olar ki, onların qeydinə qalmaq iqtidarında olmurlar.

Bu səbəbdən də sahibsiz heyvanların, o cümlədən də evinizin ətrafında yaşayan heyvanların  axtalanması olduqca vacibdir. Axtalama – baytar həkimin narkozun təsiri altında dişi və erkək heyvanlar üzərində keçirdiyi əməliyyatdır. Bu əməliyyatdan sonra heyvanlar daha balalaya bilmir. Heyvanların axtalanması çox vacib məsələdir, belə ki, sahibi olmayan və küçələrdə əziyyət çəkən heyvanların sayı olduqca çoxdur.

Bilirdinmi ki, pişiklərin axtalanması saysız-hesabsız balalama hallarının qarşısını ala bilər?
Daha doğrusu, sadəcə 7 ildə 370.000 balanın dünyaya gəlməsinin! İtlərin axtalanması isə altı ildə 67.000 balanın.
Erkək və dişi pişik yarım ilə bala dünyaya gətirə bilər. Onların 4-7 balası ola bilər. Fərz etsək ki, balalardan hamısı həyatda qalmasa belə, iki dişi və iki erkək pişik yenə bala dünyaya gətirə bilər, bir ildən sonra onların neçə balası olar? Bu tapşırıq çətin gələrsə, kömək üçün böyük qardaş və ya bacılarına, yaxud müəlliminə müraciət edə bilərsən.

Nə qədər çox heyvan axtalanarsa və dünyaya bala gətirməzsə, bir müddətdən sonra sahibsiz heyvanların sayı azalar. Beləliklə, sahibsiz heyvanlar balalamazsa, küçələrdə keçən acınacaqlı həyatı yaşamağa da məhkum olmazlar.  Bu məqsədlə heyvanların müdafiəsi təşkilatları və heyvansevərlər heyvanların axtalanması istiqamətində böyük səylər göstərirlər. Hindistanda və bir sıra digər ölkələrdə uzun illərdir olduqca uğurlu axtalama proqramları həyata keçirilməkdədir: nəticədə daha az sayda sahibsiz heyvan və müvafiq olaraq az sayda əziyyət çəkən heyvan əldə edilmişdir.



Rumıniyanın Oradea şəhərinin meri heyvanların müdafiəsi təşkilatı ilə əməkdaşlıq etmiş və nəticədə heyvanların böyük əksəriyyəti uğurla axtalanmışdır: sadəcə yeddi il ərzində sahibsiz heyvanların sayı xeyli dərəcədə azalmışdır! Əvvəllər Oradeanın küçələrində 5000 it yaşadığı halda, axtalanmadan sonra balaları olmayan heyvanların sayı 2012-ci ildə olduqca azalmış, daha dəqiq desək, 4750 daha az sahibsiz heyvan olmuşdur. Şəhərdə hələ də neçə evsiz itin yaşadığını hesablaya bilərsən?



## Sən nə edə bilərsən:

**Sahibsiz heyvan gördükdə hər zaman onların biz insanların yardımına ehtiyacı olduğunu düşünün. Ailənizlə uzun götür-qoylardan sonra heyvan saxlamaq qərarına gəldikdə, xahiş edirik, heç vaxt pulla satın almayın: nə zoomağazadan, nə bazardan, yaxud onları satmaq üçün çoxaldanlardan – çox yazığınız gəlsə belə! Xahiş edirik heyvanı sahibsiz heyvanlar üçün sığınacaqlardan götürüb ona ailə üzvünüz qismində xoşbəxt bir həyat bəxş edəsiniz.**

1.) Ümumilikdə iki pişikdən bir il sonra 14 pişik törəyir. Birinci yarım ildən sonra ilk pişik cütlüyü balalayacaq- 2 dişi, 1 erkək bala. Növbəti yarım ildə isə hər üç dişi pişiyin yenə 3-ə qədər balası olacaq.

2.) Sadəcə 250! Oradea şəhərindəki sahibsiz itlərin sayı axtalama proqramları nəticəsində yeddi ildə 95 faiz azalmışdır - Çünki itlər daha balalamadı! Bunun nəticəsində artıq çox daha az sayda it həyatlarını təhlükə və əziyyət dolu küçələrdə keçirməli olacaq.

# Viktorina:

## HEYVANLAR HAQQINDA BILDIKLƏRINIZ

**Heyvanlar haqqında nə dərəcədə məlumatlısan?**

Aşağıdakı ifadələri diqqətlə oxu və düzgün olduğunu hesab etdiyin ifadənin qarşısında “bəli”, səhv olduğunu düşündüyün ifadənin qarşısında isə “xeyr” qutusunu işarələ. Əmin olmadığın yerlərdə isə üçüncü qutunu işarələ. Düzgün cavablar bu səhifənin sonunda verilib.

1. Balinalar öz aralarında çox yaxşı ünsiyyət qura bilirlər, odur ki, Antarktidada yaşayan balina Alyaskada yaşayan balinanın səsini eşidə bilir.
   ○ bəli ○ xeyr ○ ?

2. Fransanın cənubunda yaşayan qarğalar şimalda yaşayanlardan tam fərqli “aksent”ə malikdir.
   ○ bəli ○ xeyr ○ ?

3. Vəhşi qaz yaralanarsa, o sağalana və ya ölənədək bir neçə yoldaşı başında gözləyir.
   ○ bəli ○ xeyr ○ ?

4. Cüyürlər kor yoldaşlarına kömək edir və onları yönləndirirlər.
   ○ bəli ○ xeyr ○ ?

5. Fillər ölmüş həyat yoldaşları üçün darıxır və hətta bəzən ağlayırlar.
   ○ bəli ○ xeyr ○ ?

6. Qaraquyruqlu çəməm itləri sürülərinin digər üzvlərini “öpərək” müəyyən edir.
   ○ bəli ○ xeyr ○ ?

7. Şimpanzelər bəzən döyüşdükdən sonra məğlub olmuş yoldaşlarını qucaqlayır, yaxud onların kürklərini yalayırlar.
   ○ bəli ○ xeyr ○ ?

8. Bəzi quş növləri sınmış sümüklərini bərkitmək və yaralarını sağaltmaq üçün palçıq və bitki hissələrindən istifadə edirlər.
   ○ bəli ○ xeyr ○ ?

9. Təhlükəli vəziyyətlərdə itlərin və donuzların uşaqları xilas etməsi ilə bağlı çoxlu hadisələr məlumdur.
   ○ bəli ○ xeyr ○ ?



Bütün sualların cavabı “bəli”dir! Heç təsəvvürünə gətirə bilirdin? Olduqca müxtəlif heyvanlar qeyri-adi bacarıqlara malikdir – onlar sadəcə bir-birlərinə deyil, həm də digər canlılara, elə biz insanlara da kömək edir.



Rəngli karandaşları götürüb bu sevimli köpək maskasını istədiyin kimi boya! Sonra onu qayçı ilə ehmalca kəsə bilərsən. Maskanı kartonun üzərinə yapışdır və rezin lenti nəzərdə tutulmuş hissələrə bərkit – hazırdır! **Oyundan bolluca zövq almağı arzu edirik!**







# KÖPƏYIN HƏYATI




SOYUQ QIŞ GÜNÜ İDİ, ALAGÖZ NARAHAT GÖRÜNÜRDÜ ONUN ACLIQDAN MƏDƏSİ AĞRIYIRDI.
ZƏNCİRLƏ BAĞLANMIŞ KÖPƏK ÖZÜNƏ SOYUQDAN QORUNMAQ ÜÇÜN YER TAPA BİLMİRDİ.
EV TƏRƏFƏ BAXANDA İÇƏRİDƏ AİLƏNİ GÖRÜRDÜ. O, HƏMİN AN İÇƏRİ GİRİB HEÇ OLMASA BİR NEÇƏ DƏQİQƏ ONLARIN YANINDA QALMAĞI ELƏ ARZULAYIRDI Kİ.
BƏLKƏ DƏ FƏRİD ONUN BAŞINI SIĞALLAYIB, QULAQLARININ ƏTRAFINI QAŞIYIB ONA MƏNİM AĞILLI QIZIM DEYƏRDİ.
BƏLKƏ DƏ BALACA LEYLA ATA VƏ ANASINDAN GİZLİCƏ ONA BİR TİKƏ ÇÖRƏK VERƏRDİ.




ANCAQ ALAGÖZÜN NECƏ KƏDƏRLƏ EVƏ TƏRƏF BAXDIĞININ KİMSƏ FƏRQ İNƏ VARMADI.
O, DAMA SÖYKƏDİLMİŞ FANER PARÇASININ ALTINA GİRDİ, BU, ONUN ƏN YAXIN SIĞINACAĞI İDİ.
ALAGÖZ HEÇ DƏ HƏMİŞƏ BAYIRDA YAŞAMAYIB. AİLƏ ONU BALACA İKƏN EVƏ GƏTİRDİYİNDƏ ONLARLA BİRLİKDƏ YAŞAYARDI.
FƏRİD ONUNLA İP ÇƏKMƏ OYUNUNU OYNAMAĞI ÇOX SEVƏRDİ.
O, TENNİS TOPUNU ATAR VƏ ÇOXLU GÜLƏRDİ, TOP SIÇRADIQCA ALAGÖZ SEVİNCLƏ ONUN DALINCA QAÇAR VƏ TUTMAĞA ÇALIŞARDI.
BALACA LEYLA GECƏLƏR ONU YERİNDƏN QALDIRIB QUCAQLAYIB ÖPƏR, DAHA SONRA İSƏ ÖZ YATAĞINA APARARDI. KÜÇÜK YORĞANIN ALTINDA LEYLAYA SÖYKƏNİB YATARDI.


LAKİN BƏZƏN ALAGÖZÜ BAYIRA ÇIXARMAQ LAZIM GƏLDİKDƏ FƏRİD İLƏ LEYLA XEYLİ YUBANARDI VƏ O ARTIQ DÖZƏ BİLMƏDİKDƏ XALÇANIN ÜZƏRİNDƏ “BƏDBƏXT HADİSƏ” BAŞ VERƏRDİ.
AİLƏSİ EVƏ QAYIDANDA ALAGÖZ O QƏDƏR HƏYƏCANLANARDI Kİ, SEVİNCİNDƏN ONLARIN ÜZƏRİNƏ ATLANIB VƏHŞİ TƏBİƏTDƏ İTLƏRİN BİR-BİRİLƏRİNİ SALAMLADIĞI KİMİ ÜZ-GÖZLƏRİNİ YALAYARDI.
LAKİN ATALARI BUNA ƏSƏBİLƏŞƏR VƏ ONU İTƏLƏYƏRDİ.
BU ALAGÖZÜ PƏRT EDƏRDİ – AXI ONLAR ONU GÖRDÜKLƏRİ ÜÇÜN NİYƏ SEVİNMİRLƏR?




BİR GÜN ONU BÜTÜN GÜN BOYU EVDƏ TƏK QOYUB GETDİKLƏRİNDƏ ALAGÖZ DİVANIN AYAQLARINI GƏMİRMƏYƏ BAŞLADI.
ONUN DİŞLƏRİ ÇIXIRDI, SÜD DİŞLƏRİNDƏN QURTULMAQ VƏ AĞRIDAN SIZILDAYAN DAMAQLARINI SAKİTLƏŞDİRMƏK ÜÇÜN NƏ İSƏ GƏMİRMƏLİ İDİ.
O, AİLƏDƏ DİVANIN YALNIZCA İNSANLARIN İSTİFADƏSİ ÜÇÜN NƏZƏRDƏ TUTULDUĞUNU DƏRK ETMİRDİ. AYAQLAR FƏRİDİN HƏYƏTDƏ ONA ATDIĞI ÇUBUQLAR KİMİ O QƏDƏR CƏLBEDİCİ GÖRÜNÜRDÜLƏR Kİ.


ALAGÖZÜN NƏ ETDİYİNİ GÖRƏN ANA QƏZƏBLƏNİB FƏRİDDƏN ONU HƏYƏTƏ ÇIXARMASINI TƏLƏB ETDİ.
ƏVVƏLCƏ ALAGÖZ HƏYƏCANLANMIŞDI-FƏRİD İLƏ GƏZMƏYƏ GETDİKLƏRİNİ DÜŞÜNMÜŞDÜ.
LAKİN FƏRİD OYNAMAQ HƏVƏSİNDƏ DEYİLDİ. O, ALAGÖZÜN XALTASINI ZƏNCİRƏ KEÇİRİB ARXASINA BELƏ BAXMADAN EVƏ GETDİ.
ALAGÖZÜ BİR DAHA EVƏ BURAXMADILAR.




ALAGÖZ ARTIQ NƏ QƏDƏR MÜDDƏTDİR KÜÇƏDƏ YAŞADIĞINI UNUTMUŞDU. TƏK XATIRLADIĞI ŞEY YAYIN HƏDDİNDƏN ÇOX İSTİ KEÇMƏSİ VƏ BAŞININ AZ QALA ALOVLANIB YANACAĞINI DÜŞÜNMƏSİ İDİ.
QIŞDA İSƏ O, HEÇ CÜR İSİNƏ BİLMİRDİ, BƏRK TORPAQDAN BAŞQA YATACAQ YERİ YOXDU.
BAŞQA İTLƏR ƏTRAFINA YIĞIŞANDA ONU NİYƏ NARAHAT ETDİKLƏRİNİ BAŞA DÜŞMÜRDÜ VƏ ONLARIN ÇIXIB GETMƏSİNİ İSTƏYİRDİ.
ONLARIN YANINDAN QAÇIB UZAQLAŞMAQ İSTƏSƏ DƏ, QAÇACAQ VƏ GİZLƏNƏCƏK YERİ YOX İDİ.
BUNDAN BAŞQA O, DAİM ACLIQ HİSS EDİRDİ. ONA ELƏ GƏLİRDİ Kİ, NƏ QƏDƏR YESƏ DƏ ACDIR. SOYUQ HAVADA ƏLAVƏ, CANINI İSİDƏCƏK YEMƏYƏ DAHA ÇOX EHTİYACI OLURDU.


BİR GECƏ O YAMAN NARAHAT İDİ. HAVA ÇOX SOYUQDU – TEMPERATUR SIFIRDAN AŞAĞI ENMİŞDİ. ELƏ HƏMİN GECƏ YARISI O, DÜNYAYA 10 KÜÇÜK GƏTİRDİ.
ONLAR NƏM VƏ DEMƏK OLAR Kİ, TÜKSÜZ İDİLƏR, ŞİDDƏTLİ KÜLƏYƏ QARŞI GƏLƏ BİLMİRDİLƏR. ALAGÖZ ONLARI İSİTMƏK ÜÇÜN NƏ İSƏ ETMƏLİ OLDUĞUNU BİLİRDİ.
BƏDƏNİ İLƏ ONLARI İSİTMƏK ÜÇÜN ÜZƏRLƏRİNƏ UZANMAQ İSTƏSƏ DƏ, BUNUN HEÇ BİR NƏTİCƏSİ OLMADI, KÜÇÜKLƏR GETDİKCƏ DAHA ÇOX ÜŞÜYÜRDÜLƏR.
NÖVBƏTİ GÜN TEZ-TEZ ALAGÖZÜ ZİYARƏT EDƏN, ONA YEMƏK GƏTİRƏN VƏ SIĞALLAYAN SONA, LALƏ VƏ YUSİF MƏKTƏBDƏN EVƏ QAYIDARKƏN BİR DƏQİQƏLİK BAŞ ÇƏKMƏYƏ GƏLDİLƏR.
HƏLƏ PİYADA KEÇİDİNDƏN ONLAR SOYUQ TORPAQDA UZANMIŞ BALACA KÜÇÜKLƏRİ GÖRDÜLƏR.


BU NƏDİR?
SANKİ ... KÜÇÜYƏ BƏNZƏYİRLƏR!
ONLAR YAXINDAN BAXMAQ ÜÇÜN DƏRHAL ALAGÖZÜN YANINA QAÇDILAR. ALAGÖZ ELƏ HƏYƏCANLANMIŞDI Kİ, BƏLKƏ BU UŞAQLAR ONUN BALALARI XİLAS EDƏ BİLƏRDİLƏR!
LAKİN UŞAQLAR GEC QALMIŞDI – KÜÇÜKLƏRİN HAMISI GECƏ BOYU SOYUQDAN ÖLMÜŞDÜ.
YAZIQ KÖRPƏLƏR.
SƏNİN BALALARINI XİLAS ETMƏYƏ İMKANIN YOX İDİ, ALAGÖZ. AXI SƏN NƏ EDƏ BİLƏRDİN, QIZIM?
GƏRƏK NƏ İSƏ EDƏK. KÜÇÜKLƏRİ LAZIMI ŞƏKİLDƏ DƏFN ETMƏLİYİK.
GÖZLƏYİN, MƏNCƏ, GƏLİN ƏVVƏL HƏR ŞEYİ MƏNİM ANAMA DANIŞAQ, GÖRƏK O, NƏ DEYİR.


UŞAQLARIN LALƏGİLİN EVİNƏ GEDİB OLANLARI ANASINA DANIŞDILAR.
BU, HEYVANLARA QARŞI QƏDDARLIQDIR! İNDİ ATANA ZƏNG VURACAM, RAZI OLSA, BƏLKƏ ALAGÖZÜ EVİMİZƏ GƏTİRDİK!
BALACA LALƏNİN ANASI ALAGÖZÜN OLDUĞU YERƏ GETDİ VƏ GÖRDÜKLƏRİ ONU ÇOX SARSITDI. O, NƏ ETMƏLİ OLDUĞUNU BİLİRDİ.




ALAGÖZÜN ZƏNCİRİNİ AÇDI...
... VƏ EHTİYATLA KÜÇÜKLƏRİ YERDƏN QALDIRDI.
ALAGÖZÜ AXTALANMASI ÜÇÜN BAYTARA APARDI VƏ KEYFİYYƏTLİ YEMLƏ TƏMİN ETDİ.
LALƏ, ƏZİZİM, ATANLA MƏN BİR QƏRAR ALDIQ, ALAGÖZ ARTIQ BİZİMLƏ YAŞAYACAQ.
YAŞADIĞI BÜTÜN ÇƏTİNLİKLƏRDƏN SONRA BİZ ONA YAXŞI BAXMALIYIQ.
ƏLBƏTTƏ, ANA! MƏN ONUN DOSTU OLACAM!




BU, NYU-YORK ŞTATININ EFTON ŞƏHƏRİNDƏ SOYUQ YANVAR GECƏSİNDƏ DÜNYAYA 10 BALA GƏTİRMİŞ, LAKİN KÜÇÜKLƏRİNİN HAMISI ÖLMÜŞ VƏ ONLARI GÖRMÜŞ BİR QRUP UŞAĞIN SAYƏSİNDƏ SAHİBİNƏ QARŞI HEYVANLARLA RƏHMSİZCƏ DAVRANIŞA GÖRƏ QANUNVERİCİLİYİN 10 BƏNDİ İLƏ İTTİHAM İRƏLİ SÜRÜLMÜŞ BİR KÖPƏYİN BAŞINA GƏLMİŞ REAL HADİSƏLƏRƏ ƏSASLANAN UYDURULMUŞ HEKAYƏDİR.



# RƏQƏMLƏRI BIRLƏŞDIR



**Diqqətinizə görə çox sağ olun!**

Bu kitab xoşuna gəldi? Heyvanlar haqqında yeni nə isə öyrəndin?

Əgər özünü heyvanların dostu hesab edirsənsə, bunu başqalarına da göstərə və hər zaman heyvanlara kömək edə bilərsən. Bütün dünyada uşaqlar heyvanların fəal müdafiəçilərinə çevrilməkdədir. Heyvanların qəhrəmanı ol – onlar sənə minnətdar olacaq!

**Heç vaxt unutma: heyvanlarla səninlə davranılmasını istədiyin kimi rəftar et. Heyvanlar - əşya deyil, hissləri olan canlılardır.**
Odur ki, heyvanlar satın alınmamalıdır – nə zoomağazadan, nə bazardan, nə də onları çoxaldan şəxslərdən. Əgər ailənlə uzun götür-qoylardan sonra bir heyvan sahiblənmək istəyirsənsə, heyvan sığınacaqlarını ziyarət et.

Rus dilinə tərcümə etdi: Kamilla Kərimli © 2013.
Azərbaycan dilinə tərcümə etdi: Esmira Ramazanova © 2013.

# BİLİRDİNİZMİ Kİ?

İTLƏR İNSANLARIN ÜZLƏRİNDƏKİ EMOSİYALARI ANLAYA BİLİR VƏ BU, ONLARIN BİZİMLƏ ÜNSİYYƏTDƏ OLMASINA, ONLARDAN NƏ İSTƏDİYİMİZİ BAŞA DÜŞMƏSİNƏ KÖMƏK EDİR.




RİKO ADLI İT 1000-DƏN ÇOX SÖZ ÖYRƏNİB VƏ BİR AYDAN ÇOX GÖRMƏDİYİ OYUNCAQLARIN ADINI YADDA SAXLAYA BİLİR. ALİMLƏR KÖPƏKLƏRİN BU QAVRAMA QABİLİYYƏTİNİN ÜÇ YAŞLI UŞAQLA EYNİ SƏVİYYƏDƏ OLDUĞUNU BİLDİRİR.



İTLƏRİN OLDUQCA İNKİŞAF ETMİŞ İYBİLMƏ QABİLİYYƏTİ VAR – İNSANLA MÜQAYİSƏDƏ ONLARIN İYBİLMƏ ORQANLARINDA TƏXMİNƏN 25 DƏFƏ DAHA ÇOX RESEPTOR VAR. ONLAR HƏTTA BEŞ KVART (1 KVART = 1,4 L) SUDA BİR DAMCI QANI AŞKAR ETMƏK İQTİDARINDADIRLAR!



BATTERSİ ŞƏHƏRİNDƏ (İNGİLTƏRƏ) YERLƏŞƏN KÖPƏK SIĞINACAĞINDA YAŞAYAN RED ADLI İT GECƏLƏR ÖZ BUDKASINI AÇIB QAÇARAQ QƏFƏSLƏRDƏKİ YOLDAŞLARINI BURAXMAĞI ÖYRƏNMİŞDİ. MÜŞAHİDƏ KAMERALARINDAN ONUN İLKİN OLARAQ ƏN YAXIN DOSTU LAKİNİ BURAXDIĞI MƏLUM OLMUŞDUR. LAKİ İLƏ RED BİRLİKDƏ SAHİBSİZ İT KİMİ KÜÇƏDƏN GÖTÜRÜLMÜŞDÜ.



DANELL BALLENCİNİN HƏYATINI EVİNDƏ SAXLADIĞI HƏYƏT İTİ VAZ XİLAS ETMİŞDİR. SAHİBİNİN TƏLİM QAÇIŞI ZAMANI 60 FUT HÜNDÜRLÜYÜNDƏKİ QAYADAN YIXILDIĞINI GÖRƏN VAZ DANELLİN MAŞININA QAÇMIŞ VƏ XİLASEDİCİ KOMANDA HADİSƏ YERİNƏ GƏLDİYİNDƏ O, MAŞININ DAYANDIĞI YERDƏN DANELLİN YIXILDIĞI YERƏDƏK OLAN 5 MİL MƏSAFƏ BOYU KOMANDANI MÜŞAYİƏT ETMİŞDİR.

